

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 176 (21.837)

*19 sentyabr 2017-ci il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində ABŞ Etnik Anlaşma Fondunun sədri Ravvin Mark Şnayer və bir sıra xristian yevangelik dini liderlərlə görüşüb.

* * *

Sentyabrın 18-də Nyu-Yorkda, Birləşmiş Millətlər Təşkilatının baş qərargahında “BMT islahatlarına dair siyasi bəyannaməyə dəstək” adlı yüksək səviyyəli tədbir keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Nyu-Yorkda Amerika Yəhudi Təşkilatının, Dünya Yəhudi Konqresinin, “Bnai Brith International”ın, Avrasiya Yəhudilərini dəstəkləyən Milli Koalisiyanın, Şimali Amerika Yəhudi Federasiyalarının, Amerika Yəhudi Təşkilatları Prezidentlərinin Konfransının, “Vaad L`Hatzolas Nidchei Yisroel” yəhudi təşkilatının rəhbərlərinin daxil olduğu Amerika yəhudi təşkilatlarının nümayəndələri ilə görüşüb.



## Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində çalışan və 2017-ci il iyunun 30-da keçirilmiş bilik və bacarıqlarının qiymətləndirilməsində müəyyən olunmuş keçid balını toplayan müəllimlərin həftəlik dərs yükü norması və aylıq vəzifə maaşları qanunvericiliklə nəzərdə tutulmuş qaydada artırılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncamın 1-ci hissəsi 2018-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 14 sentyabr 2017-ci il*

## “Əməkdar artist” fəxri adının verilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında mədəniyyət sahəsində səmərəli fəaliyyətlərinə görə:

Əsgərov Amil Əkbər oğluna
Əsgərov Səməd Elşən oğluna
Fərzəliyev Arzu İsmayıl oğluna
Həsənova Qəribə İbrahim qızına – **“Əməkdar artist”** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 18 sentyabr 2017-ci il*

## Naxçıvanda “Milli Musiqi Günü” qeyd olunub

Sentyabrın 18-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında “Milli Musiqi Günü” münasibətilə tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak edib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 18 sentyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında mədəniyyət sahəsində səmərəli fəaliyyətlərinə görə Əsgərov Amil Əkbər oğlu, Əsgərov Səməd Elşən oğlu, Fərzəliyev Arzu İsmayıl oğlu və Həsənova Qəribə İbrahim qızı Naxçıvan Muxtar Respublikasının “Əməkdar artisti” fəxri adı ilə təltif olunublar.

Ali Məclisin Sədri təltif olunanlara Naxçıvan Muxtar Respublikasının “Əməkdar artisti” fəxri adının döş nişanını və vəsiqəsini təqdim edib.







Təltif olunanlar əməklərinə verilən qiymətə görə minnətdarlıq edib, bundan sonra da muxtar respublikada mədəniyyətin, eləcə də musiqi sənətinin inkişafında səylərini əsirgəməyəcəklərini bildiriblər.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natavan Qədimova tədbirdə çıxış edərək deyib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1995-ci ildə imzaladığı Fərmana əsasən hər il ölkəmizdə Şərqdə ilk musiqili teatr sənətinin banisi, Azərbaycan musiqisinin klassiki, görkəmli alim-musiqişünas, publisist, dramaturq, pedaqoq və ictimai xadim Üzeyir Hacıbəyovun doğum günü – 18 sentyabr “Milli Musiqi Günü” kimi qeyd olunur. Novator sənətkar olan Üzeyir Hacıbəyov Azərbaycan klassik musiqisinin bütün janrlarının bünövrəsini qoymuşdur. Bu gün ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında da milli musiqimizin inkişafına hərtərəfli dövlət qayğısı göstərilir. Muxtar respublika mədəniyyəti özünün yeni inkişaf dövrünü yaşayır. Bu yüksəlişin fonunda milli musiqi sənətinin də inkişafı təmin olunub. Son illər Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə yeni musiqi məktəbləri tikilib istifadəyə verilmiş, Naxçıvan Dövlət Filarmoniyasının, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının, Naxçıvan Musiqi Kollecinin maddi-texniki bazası gücləndirilmiş, Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının və Aşıqlar Birliyinin fəaliyyəti təmin edilmişdir. Muxtar respublikada milli musiqimizin təbliği istiqamətində də mühüm tədbirlər görülür, yaradıcı kollektivlərin xarici ölkələrə qastrol səfərləri təşkil edilir. Musiqimizin inkişafı istiqamətində görülən tədbirlər uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərini də əhatə etmişdir. Son illər 20-dən çox musiqi məktəbi üçün bina inşa olunaraq və ya yenidən qurularaq istifadəyə verilib. Hazırda muxtar respublikada 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi fəaliyyət göstərir.

Qeyd olunmuşdur ki, uşaqların istedadının üzə çıxarılmasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 19 aprel tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Filarmoniyasının da

*Ardı 2-ci səhifədə*

mühüm rolu vardır. 1998-ci ildə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin nəzdində konservatoriyanın açılması isə ali təhsilli musiqiçi kadrların yetişdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamından sonra Azərbaycan xalqının tarixini özündə yaşadan xalq musiqisi, yallılar, xalq rəqsləri, toy adətlərinin tədqiqinə və təbliğinə başlanmışdır. Natəvan Qədimova muxtar respublikada musiqinin və mədəniyyətinin inkişafına göstərdiyi diqqət və qayğıya görə bütün mədəniyyət işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Sonra Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin və rəqs qrupunun ifasında konsert olmuşdur.



Orkestrin bədii rəhbəri və dirijoru Azərbaycan Respublikasının Xalq artisti Çingiz Axundov, baletmeyster Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Tamerlan Bağırovdur. Konsertdə görkəmli Azərbaycan bəstəkarları Üzeyir Hacıbəyovun, Qara Qarayevin, Tofiq Quliyevin, Fikrət Əmirovun, Niyazinin, Vasif Adıgözəlovun, Ramiz Mirişlinin, dünya musiqisinin korifeylərindən Volfhanq Amadey Motsartın, İohan Bramsın, Antonio Vivaldinin, İohan Ştrausun, Karlos Qardelin əsərlərindən parçalar, eləcə də xalq mahnıları səslənmiş, milli musiqi alətimiz balabanda Azərbaycan xalq mahnısı "Sarı gəlin" ifa olunmuşdur. Azərbaycan Respublikasının Əməkdar artistləri Tural Nəcəfovun, Gülyanaq Fərzəliyevanın, Mübariz Əsgərovun, Vilayət İsmayılovun və Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Zülfüqar Mahmudovun çıxışları alqışlarla qarşılanmış, rəqs qrupu milli və dünya rəqs nümunələrini məharətlə ifa etmişdir.

Ali Məclisin Sədri konsertdən sonra səhnə arxasına keçərək ifaçılarla görüşmüş, onları "Milli Musiqi Günü" və uğurlu çıxışlarına görə təbrik edərək demişdir: Bugünkü uğurlu konsert proqramı bir daha göstərdi ki, Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestri bütün səhnələrdə çıxış etməyə qadirdir. Son illər Naxçıvan musiqi həyatında böyük uğurlar qazanılıb, orkestrlər yaranıb, dəyərli musiqiçilər yetişib. Bütün bunlar yaradılan şəraitin nəticəsində mümkün olmuşdur. Muxtar respublikada musiqi təhsilinin bütün pillələri üzrə kadr hazırlığı təmin edilmişdir. Kəndlərdə fəaliyyət göstərən musiqi məktəbləri, dərnəklər, Naxçıvan Musiqi Kolleci, Naxçıvan Dövlət Universitetinin Konservatoriyası muxtar respublikada ixtisaslı musiqiçi kadrların yetişməsinə, musiqi mədəniyyətinin inkişafına və milli musiqimizin yaşadılmasına xidmət edir. Musiqinin sərhədi və milləti yoxdur. Bu gün Üzeyir Hacıbəyovun əsərləri hansı ölkədə ifa olunsa, ölkəmizdəki qədər sevilər. Eyni zamanda Bethovenin, Motsartın əsərləri bütün dünya ölkələrində səhnələri fəth edir. Bugünkü konsertdə də həm xalq yaradıcılığı nümunələri, həm də görkəmli Azərbaycan və dünya bəstəkarlarının əsərləri ifa olundu.

Ali Məclisin Sədri demişdir: Milli musiqi o yerdə inkişaf edir ki, onun kökü olsun. Xalq isə o zaman milli musiqisi ilə fəxr edir ki, onun musiqi sənəti qədim xalq yaradıcılığı nümunələrinə, xalq musiqisinə əsaslansın. Çünki hər bir xalqın varlığı həm də onun xalq yaradıcılığında, xalq musiqisində yaşayır. Bu gün Gəmiqaya abidələrində həkk olunan qədim yallı nümunələri milli musiqimizin minillik inkişaf tarixindən xəbər verir.

Ali Məclisin Sədri muxtar respublikada istedadlı musiqiçilərin yetişməsinin və uğurlu konsertlərin təşkilinin fəxr doğurduğunu bildirmiş, orkestrin bədii rəhbərinə və bütün kollektivə təşəkkür etmiş, onlara yeni yaradıcılıq uğurları arzulamışdır.

Sonra xatirə şəkli çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## AMEA Naxçıvan Bölməsində seminar keçirilib



*AMEA Naxçıvan Bölməsində Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən seminar keçirilib.*

Seminarı giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq bölmə əməkdaşlarının qrant layihələrdəki fəaliyyəti haqda ətraflı məlumat verib, əldə edilən uğurları elmin inkişafına göstərilən dövlət qayğısının bəhrələri kimi dəyərləndirib.

Bölmə sədri bildirib ki, 2011-ci ildən başlayaraq AMEA Naxçıvan Bölməsinin bir qrup əməkdaşı qrant layihələrində uğurla iştirak edərək Naxçıvan Muxtar Respublikasının yeraltı sərvətlərindən molibden (VI) oksidin, sürmə (III) sulfidin və farmaseptik təmiz natrium-xloridin yeni alınma metodlarının işlənməsi, bölmənin Batabat Astrofizika Rəsədxanası üçün spektrometrik cihazların düzəldilməsi, quraşdırılması, "Seyss-600" teleskopunda sınaq müşahidələrinin aparılması, ixtisaslı elmi-texniki kadrların hazırlanması və spektroskopik tədqiqatların həyata keçirilməsi üzrə qrantlar alıblar. Bundan başqa, Naxçıvan Muxtar Respublikasında rəsmi dərman bitkilərinin genofondunun müəyyənləşdirilməsi, təbii ehtiyatı bol olan həmin bitkilərdən səmərəli istifadə olunması və mühafizəsinin elmi əsasları, muxtar respublikanın yeraltı sərvətlərindən yüksək temperatura davamlı istilikizolyasiya materialların və seolitlərin alınma metodlarının işlənməsi, I Kültəpə və onun ətrafında araşdırmalar, Naxçıvan folklorunun toplanması, elmi-tədqiqi və nəşri, eləcə də digər layihələr üzrə qrantlar alınıb. Bölmə əməkdaşları bundan sonra da qrant müsabiqələrində uğurla iştirak etməyə çalışacaqlar.

Seminarda Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru Elçin Babayev çıxış edərək bildirib ki, ölkəmizdə elmin inkişafı istiqamətində görülən ən mühüm işlərdən biri də ölkə Prezidenti cənab İlham Əliyevin 2009-cu il 21 oktyabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun yaradılmasıdır. Fondun təşkilində məqsəd ölkədə elmi-texniki potensialın qorunması, iqtisadiyyatın inkişafında bu potensialdan səmərəli istifadə edilməsi, mühüm sosial problemlərin həllində elm və texnikanın rolunun yüksəldilməsidir. Fond fəaliyyətə başladığı ilk gündən etibarən qrant müsabiqələri yolu ilə ölkədə elmin inkişafını çevik şəkildə dəstəkləməyi, Azərbaycanda əldə olunan elmi nəticələri ölkə hüdudlarından kənarda tanıtmağı, elmi təşkilat və qurumlarda müxtəlif tədqiqatlarla bağlı maddi-texniki bazanı ən müasir səviyyədə yeniləməyi və digər məsələlərin həllini bir məqsəd kimi müəyyənləşdirib.

Müsabiqələrdə iştirak üçün internet resurslardan istifadə qaydaları haqqında ətraflı məlumat verən Elçin Babayev bildirib ki, qurumun şəffaflıq prinsipləri üzərində təşkil edilmiş fəaliyyəti rəsmi internet səhifəsində yerləşdirilib və məlumatlar daim yenilənir. Müsabiqəyə daxil olmuş bütün layihələr yerli və lazım gəldikdə xarici müstəqil elmi ekspertlərin iştirakı ilə və konfidensiallıq şərti qorunmaqla elmi ekspertizadan keçirilir. Elmin İnkişafı Fondu ilk qrant layihələri müsabiqəsini 2010-cu il iyunun 30-da elan edib. Fondun maliyyələşdirdiyi layihələrin sayı ilbəil artır, format zənginləşir və müsabiqəyə təqdim olunan işlərin keyfiyyəti nəzərəçarpacaq dərəcədə yüksəlir. Fondun qrant müsabiqələri üzrə dövlət büdcəsindən maliyyə həcmi tədricən artır. Müsabiqələrin keçirilməsi qaydaları öz novatorluğu ilə seçilir və eyni zamanda fundamental, tətbiqi və axtarış-innovasiya xarakterli elmi-tədqiqat layihələrinin və xüsusi proqramların idarə olunmasını nəzərdə tutur.

Vurğulanıb ki, son illərdə naxçıvanlı alimlərin bu müsabiqələrdə fəal iştirakı muxtar respublikada elmin ilbəil inkişafından, bu sahəyə göstərilən dövlət qayğısından xəbər verir. Əminliklə demək olar ki, naxçıvanlı alimlər bundan sonra da yeni layihələrlə müsabiqələrdə iştirak edəcəklər.

Slaydlar vasitəsilə müsabiqədə iştirakın qaydaları haqqında məlumat verildiyi seminarda suallar cavablandırılıb, bir sıra məsələlərə aydınlıq gətirilib.

Seminara AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurub.

**Səbuhi HÜSEYNOV**

## Naxçıvan Müəllimlər İnstitutunda konfrans olub

Naxçıvan Müəllimlər İnstitutunda "Kitab bilik xəzinəsidir" mövzusunda keçirilən konfransı Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanova açaraq bildirib ki, kitab idrak mənbəyi, kamillik vasitəsidir və insan əsl təhsili mütaliə etməklə qazanır. Qloballaşan dünyada həllivacib məsələlərdən biri də insanlarda mütaliə mədəniyyətinin inkişaf etdirilməsidir.

Qeyd edilib ki, muxtar respublikamızda mütaliə üçün geniş imkanlar vardır. Yaradılan şərait nəticəsində oxucular ənənəvi kitabxanalarla yanaşı, elektron kitabxanalardan da istifadə edə bilərlər. Belə mədəniyyət müəssisələri üçün yeni binaların tikilməsi, mövcud binaların yenidən qurulması, müasir tələblərə cavab verən maddi-texniki bazanın yaradılması, kitabxana fondlarının həm tədris, həm də bədii ədəbiyyatla zənginləşdirilməsi, kitabxanalara ölkə Prezidentinin sərəncamı ilə nəşr olunan Azərbaycan və dünya ədəbiyyatı klassiklərinin, həmçinin müasir dövrün şair və yazıçılarının ən qiymətli əsərlərinin pulsuz verilməsi bunun bariz ifadəsidir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə "Oxunması zəruri olan kitabların siyahısı"nın təsdiq edilməsi təkcə muxtar respublikamızın deyil, ölkəmizin təhsil işçiləri, tanınmış ziyalıları tərəfindən rəğbətlə qarşılanıb. Çünki bu kitablar gənc nəsildə vətənpərvərliyin, tarixə, milli köklərə bağlılığın formalaşdırılmasına əsaslı təsir göstərəcək ideoloji mənbələr rolunu oynayır, onların kənar təsirlərdən qorunması üçün dünyagörüşünü zənginləşdirir, dövlətə, dövlətçiliyə, Vətənə, xalqa bağlılıq hisslərini aşılayır. Siyahıda olan kitabların əksəriyyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı əsasında latın qrafikası ilə çap olunmuş əsərlərdir. Həmin kitablar dövlətin qayğısı ilə bütün məktəb kitabxanalarına göndərilib. Sərəncamla bağlı muxtar respublikanın bütün kitabxanalarında həmin kitablardan ibarət guşə yaradılıb.

Tədbirdə filologiya üzrə elmlər doktoru, professor Sədaqət Həsənova "Kitablardan öyrənmək həmişə faydalıdır", Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının elmi katibi Günay Kəngərli "Mütaliə cəmiyyətin vərdişinə çevrilməlidir", kitabxanaçı Gülnisə Zeynallı "İnformasiya dövrü və mütaliə problemi" mövzularında çıxışlar ediblər.

Sonra təşkil edilən səyyar sərgiyə baxış olub.

**Nail ƏSGƏROV**

## Payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə edilib



*Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı keçirilən yığıncağı giriş sözü ilə xidmətin rəisi Namiq Paşayev açaraq bildirib ki, muxtar respublikanın energetika sektorunun növbəti mövsümə hazırlığı tapşırığa uyğun olaraq diqqət mərkəzində saxlanılır.*

Qeyd olunub ki, alternativ və bərpaolunan enerji mənbələri üzrə işləyən elektrik stansiyalarında elektrik enerjisi istehsalı ümumi istehsalın 60 faizi qədərdir ki, bu da inkişaf etmiş ölkələrlə müqayisədə mühüm göstərici hesab edilir. Bundan başqa, Culfa rayonu ərazisində külək elektrik stansiyasının tikintisi üçün ölçü qurğuları alınıb quraşdırılıb. Araz çayı üzərində derivasiyatipli 36 meqavat güclü Ordubad Su Elektrik Stansiyasında su aparan kanalın və digər qurğuların tikintisi həyata keçirilir.

Ordubad rayonu ərazisində tikilməsi nəzərdə tutulan 14 meqavat güclü Tivi Su Elektrik Stansiyasının texniki-iqtisadi əsaslandırılması və ilkin layihə sənədləri hazırlanıb.

Hazırda Şahbuz rayonunda işçilərin iş şəraitini yaxşılaşdırmaq üçün yeni inzibati idarə binası və ikitransformatorlu müasir 35/10 kilovoltluq yarımstansiyanın tikilərək istismara verilməsi üçün son tamamlama işləri aparılır. Bu məqsədlə 1 kilometr uzunluqlu birdövrəli 35 kilovoltluq, 10 kilometr uzunluqlu 10 kilovoltluq elektrik verilişi xəttinin çəkilməsi işləri artıq başa çatdırılıb.

Naxçıvan, Şərur və Culfa transformator təmiri sexlərində 63 ədəd 10/0,4 kilovoltluq transformator təmir edilib şəbəkələrə qaytarılıb.

Vurğulanıb ki, elektrik enerjisindən israfçılıqla istifadə edilməsi, həmçinin sayğacdankənar enerjidən istifadə olunması və sayğaclara müdaxilə hallarının qarşısını almaq üçün mütəmadi reydlər keçirilir.

Bildirilib ki, muxtar respublikanın elektrik şəbəkələrinə gün ərzində verilən elektrik enerjisinin çox hissəsi Naxçıvan Modul Elektrik Stansiyasında istehsal edilir. Hazırda stansiyada 48 min işləmə saatına uyğun əsaslı təmir işləri həyata keçirilir.

Diqqətə çatdırılıb ki, 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq üçün kifayət qədər avadanlıq və material ehtiyatı yaradılır. İlin sonunadək məftil, ağac dirək, yağ, 35 və 10 kilovat hücrələri, 10/0,4 kilovoltluq transformatorlar, kabellər alınması üçün yeni müqavilələr bağlanılıb.

Sonra payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı çıxışlar olub.

Tədbirə Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev yekun vurub.

**Xəbərlər şöbəsi**

# Torpaqlardan səmərəli istifadə üzümçülüyün inkişafında da mühüm rol oynayır

***Ötən əsrin 70-80-ci illərində ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi sayəsində respublikamızda üzümçülük sürətlə inkişaf edib. Ulu öndərin 1969-cu ildə Azərbaycana rəhbərliyə başladığı zaman üzüm istehsalı 272 min ton olduğu halda, sonrakı dövrlərdə görülən tədbirlər nəticəsində bu rəqəm 2 milyon tonu ötüb. Bu isə aqrar-sənaye kompleksinin inkişafına, kənd əhalisinin həyat səviyyəsinin yüksəlməsinə səbəb olub. Ötən əsrin 80-ci illərində hər il Azərbaycanda ticarət təşkilatlarına 30 min ton, o cümlədən Bakı şəhərinə 15-16 min ton süfrə üzümü göndərilirdi. Respublikadan kənara isə daha çox – 230-240 min ton süfrə üzümü ixrac edilirdi.***

Lakin keçmiş ittifaq rəhbərliyinin alkoqolizm və sərxoşluğa qarşı mübarizə tədbirləri haqqında 1985-ci ildə qəbul etdiyi qərar respublikamızda, o cümlədən muxtar respublikamızda üzümçülüyün inkişafına ciddi zərbə vurub. Bu cür qərəzli qərardan sonra Azərbaycanda 130 min hektardan çox məhsuldar üzüm bağı məhv edilib və uzun illər böyük zəhmət hesabına yaradılan infrastruktur dağıdılıb. Respublika iqtisadiyyatına ovaxtkı qiymətlərlə 630 milyon manat dəyərində ziyan dəyib.

1993-cü ildə Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra üzümçülük-şərabçılıq sahəsinə diqqət yenidən artıb. Ulu öndərin məqsədyönlü siyasəti sayəsində ölkədə üzümçülük tədricən dirçəlməyə başladı. Azərbaycanın qədim üzümçülük zonaları olan Naxçıvan, Şamaxı, Cəlilabad rayonlarında və bir sıra digər bölgələrdə yerli üzüm sortlarından ibarət yeni üzüm bağları salınıb.

Bu siyasət bu gün ölkəmizdə və muxtar respublikamızda uğurla davam etdirilir. "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı", "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" muxtar respublikanın bütün bölgələrində bu sahənin inkişafına təkan verib. Üzümçülüyün inkişafında Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun Torpaq ehtiyatları laboratoriyasının üzərinə də mühüm vəzifələr qoyulub. Belə ki, bölgədə aqrar sektorda yeni-yeni nailiyyətlər əldə etmək üçün əsas məsələlərdən biri də müasir dövrün tələblərinə cavab verən yeni metodların tətbiqi ilə yanaşı, torpaqlardan səmərəli istifadə olunmasıdır. Məhz bu baxımdan üzümçülüyün inkişaf etdirilməsi torpaqların potensial imkanlarının müəyyənləşdirilməsində ərazinin fiziki-coğrafi şəraitinin öyrənilməsi ilə bərabər, torpaqların üzüm bitkisi altında qiymətləndirilməsi, aqroistehsalat qruplaşdırılması və münbitlik modellərinin qurulması vacib məsələ kimi qarşıda durur.



Onu da deyək ki, muxtar respublikada təbii və mədəni bitkilər altında torpaqların xüsusi qiymət balları Azərbaycanda, o cümlədən xarici ölkələrdə tərtib olunan metodikalar əsasında (100 ballıq şkala ilə) hesablanır. Apardığımız tədqiqatlar əsasında muxtar respublikanın təbii, xüsusilə mədəni bitkilərə (yem, taxıl, üzüm və tərəvəz) yararlı torpaqların konkret olaraq ümumi sahəsi müəyyənləşdirilib, orta məhsuldarlığı və qiymət balları hesablanıb. Burada biz ancaq muxtar respublikada üzüm bitkisi altında torpaqların qiymətləndirilməsi, aqroistehsalat qruplaşdırılması və münbitlik modellərinin qurulması haqqında məlumatları oxucularla paylaşacağıq.

İlk öncə üzüm bitkisi altında torpaqların qiymətləndirilmə ballarına diqqət yetirək. Aparılmış elmi araşdırmalar nəticəsində aydın olur ki, üzüm bitkisi altında ən yüksək mədəniləşmiş qəhvəyi 100, tünd-qəhvəyi 98, suvarılan qəhvəyi 92, qədimdən suvarılan-boz 85, suvarılan boz-qonur 73, çəmən-qəhvəyi 68, ən aşağı boz 45, ibtidai-boz isə 39 bal (qiymət) alıb. Üzüm bitkisi altında yüksək bal alan torpaqlar digər mədəni (yem, taxıl, tərəvəz və sair) bitkilərdən tamamilə fərqlənir.

Tədqiqat işində mədəni bitkilər altında torpaqların qiymətləndirilməsindən sonra əsas mərhələlərdən biri də torpaqların aqroistehsalat qruplaşdırılmasıdır. Muxtar respublikada torpaqların mədəni bitkilər altında məhsuldarlığının dəqiq hesabatının, o cümlədən aqroistehsalat qruplaşdırılmasının aparılması əlavə xərclərdən azad olmağa şərait yaradır. Torpaqların aqroistehsalat qruplaşdırılması onun münbitlik göstəricilərinə (qiymət ballarına) və üzərində bitən bitkilərin məhsuldarlığına görə bir qrupda birləşdirilməsidir.

Öncə torpaqların qiymətləndirilməsində qeyd etdiyimiz qiymət ballarının nəticələrindən istifadə edərək, Azərbaycanın torpaqlarında tərtib olunmuş qiymət balları, qruplar və sinifləri əsasında muxtar respublikada üzüməyararlı torpaqların aqroistehsalat qruplaşdırılması aparılıb, 5 qrup və 10 sinif daxilində birləşdirilərək cədvəl tərtib olunub. Həmçinin burada üzüməyararlı torpaqların əsas qiymət ballarına uyğun ballar hər bir qrupda birləşdirilərək aqroistehsalat qruplaşdırılması aparılıb və müqayisəli nisbi dəyərlilik əmsalları hesablanıb.

Apardığımız təhlillərdə üzüməyararlı 56 min 60 hektar sahənin 21,91 faizi və ya 12 min 285 hektarını yüksəkkeyfiyyətli (I qrup), 61,96 faizi və ya 34 min 725 hektarını yaxşıkeyfiyyətli (II qrup), 15,33 faizi və ya 8 min 595 hektarını ortakeyfiyyətli (III qrup), 0,80 faizi və ya 455 hektarını isə aşağıkeyfiyyətli (IV qrup) torpaqlar təşkil edir.

Qeyd olunan aşağıkeyfiyyətli torpaqlara kompleks aqrotexniki tədbirlər sisteminin və aqromeliorativ tədbir olaraq yerli seolitin tətbiqi üzüm bitkisinin bu torpaqlarda yaxşı böyüyüb inkişaf etməsinə şərait yaradır. Burada quraqlıq olan illərdə kolları vaxtlı-vaxtında suvarmaqla yüksək məhsul əldə etmək də mümkündür. Muxtar respublikada üzüm bitkisinə yararlı torpaqlar, demək olar ki, bütün inzibati rayonlarda mövcuddur.

Beləliklə, apardığımız tədqiqatlar əsasında muxtar respublika torpaqlarının qiymət balları və aqroistehsalat qruplaşması onların orta balını, torpaqların müqayisəli dəyərlilik əmsalı (TMDƏ) və torpaqların keyfiyyət qrupu üzrə sahələrini hesablamağa imkan verir.

Torpaqlardan maksimum dərəcədə səmərəli istifadə etmək üçün müasir metodlardan biri də mədəni bitkilər altında torpaqların münbitlik modellərini qurmaqdır. Muxtar respublikada bu istiqamətdə apardığımız tədqiqat işləri nəticəsində üzüm bitkisi (Hənəqırna sortu) altında da torpaqların münbitlik modeli qurulub. Münbitlik modelini qurmaq üçün ərazidə 2 torpaq tipi boz-çəmən və qəhvəyi torpaqları seçilib. İlk öncə üzüm bitkisi altında boz-çəmən torpaqların münbitlik modelinin qurulmasına diqqət yetirək. Bu torpaqlarda münbitlik modelini qurarkən AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun nəzdində olan "Şornav" təcrübə sahəsindəki üzüm bağından istifadə olunub. Qəhvəyi torpaqların münbitlik modeli qurularkən, Culfa rayonunun Saltaq və Bənəniyar kəndləri (Əlincəçayın terraslarında) və Ordubad rayonunun Aşağı Əylis kəndinin torpaq sahələrində yayılan üzümlüklərdən istifadə olunub.

Üzüm bitkisi altında qurulmuş münbitlik modellərində boz-çəmən torpaqlarında humusun faktiki göstəricisi 1,7, optimal göstəricisi 2, bunlar arasında fərq isə 0,3 faiz təşkil edirsə, qəhvəyi torpaqlarda isə humusun faktiki göstəricisi 3,7, optimal göstəricisi 4, bunlar arasında fərq isə 0,3 faiz təşkil edir.

Aparılan təhlillər əsasında üzüm bitkisi altında 2 torpaq tipində (boz-çəmən və qəhvəyi) qurulmuş münbitlik modelində faktiki və optimal göstəricilər arasında fərqlər müəyyən edilərək üzüm bitkisi altında torpaqların münbitliyini artırmaq üçün də imkanlar göstərilib. Gəlinən nəticə bunu deməyə əsas verir ki, bu imkanlardan muxtar respublika şəraitində səmərəli istifadə etməklə üzümçülük sahəsində yüksək məhsuldarlığa nail olmaq mümkündür. Qurulmuş münbitlik modelində bozçəmən torpaqlarında üzüm bitkisi (Hənəqırna sortu) altında nəzarət variantında orta hesabla 2 min manata qarşı tətbiq variantında 2 min 500 manat, dağ-qəhvəyi torpaqlarda isə 4 min manata qarşı 5 min manat xalis gəlir əldə olunub. Bu baxımdan muxtar respublikanın torpaq-iqlim zonalarında üzüm bitkisi üçün qurduğumuz model əvvəlki tədqiqatlara nisbətən elmi və praktik cəhətdən əhəmiyyətlidir.

Son illər ölkəmizdə bu istiqamətdə aparılan elmi-tədqiqat işləri gücləndirilib. Belə ki, torpağın tərkib və xassələrinin ayrı-ayrı bitkilərin məhsuldarlığı ilə əlaqəsinin tədqiqi Azərbaycan Respublikasının digər bölgələrində və Naxçıvan Muxtar Respublikasında torpaqların faktiki və optimal parametrlərinin işlənməsinə də imkan yaradıb. Bu zaman torpaqdan istifadənin əsas məqsədi torpaq münbitliyinin geniş təkrar istehsalı və bu əsasda kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılması məsələsi, torpaqların münbitliyinin səviyyəsini müəyyən edən torpağın əsas xassə və rejimlərinin optimallaşdırılması istiqamətində getməlidir.

Təbii ki, torpaq münbitliyinin konkret modelləri üzərində bir çox tədqiqatçıların, hətta aqronom-mütəxəssislərin işləməsi, bu modellərin iqtisadi səmərəliliyinin uzun illər ərzində təsərrüfatlarda yoxlanması tələb olunur.

*Muxtar respublikada üzüməyararlı torpaqlarda münbitlik modeli üzrə apardığımız tədqiqat işlərinin nəticələrindən tövsiyə şəklində hazırlanıb və istifadə etmək üçün təsərrüfatlara verilib. Gələcəkdə Naxçıvan Muxtar Respublikasında üzüm bitkilərinin bir sortu üzrə deyil, regionda becərilən digər sortlar altında uyğun torpaqların münbitlik modellərinin qurulması istiqamətində də elmi-tədqiqat işlərinin aparılmasının genişləndirilməsi nəzərdə tutulur.*

**Sahib HACIYEV**
***aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent***

# Avtomobillərə yüksək servis xidməti göstərən ünvan – "Gəmiqaya Nəqliyyat"



***Son illərdə muxtar respublikada əhalinin sosial rifah halının yaxşılaşması digər sahələrlə bərabər, nəqliyyat sahəsində də xeyli irəliləyişlərə gətirib çıxarıb. Əvvəllər Naxçıvan sakinləri ən yaxşı halda sovet avtomobillərindən və xaricdə istehsal olunanların köhnə modellərindən istifadə edirdilərsə, indi şəhərimizin küçələrində müasir və bahalı maşın modellərini görmək mümkündür. Təbii ki, avtomobilin saz vəziyyətdə saxlanılması da mühüm cəhətlərdən biridir. Əgər hər hansı bir şəxs dünyanın ən tanınmış avtomobil modellərindən birini alıb gətiribsə və burada da onun servis xidməti yoxdursa, demək, qısa zamanda həmin şəxsin avtomobilinin sazlığı ilə bağlı bir sıra problemlər yaranacaqdır.***

Bu cəhətdən "Gəmiqaya Nəqliyyat" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti təqdirəlayiqdir. Müəssisədə yaradılan şəraitdən, göstərilən xidmətdən söz açmaq üçün adıçəkilən ünvanda olduq. Öyrəndik ki, "Gəmiqaya Nəqliyyat" Məhdud Məsuliyyətli Cəmiyyəti 2011-ci ilin fevral ayından fəaliyyətə başlayıb. Müəssisədə keyfiyyətli servis xidmətlərinin göstərilməsi üçün hərtərəfli şərait yaradılıb. Hazırda bu ünvanda bütün avtomobillərə, o cümlədən xaricdə istehsal edilən yük və minik avtomobillərinə servis xidmətləri göstərilir, lazımi ehtiyat hissələri alınıb muxtar respublikaya gətirilir. Müəssisənin yerləşdiyi ərazidə inzibati bina, yeməkxana, ehtiyat hissələrinin saxlanılması anbarı, müasir avadanlıqlarla təmin olunmuş laboratoriya, müxtəlif təmir sahələri tikilib, müasir texnoloji avadanlıqlar quraşdırılıb.

Müəssisədə yük və minik avtomobillərinin təmiri sahəsi yerləşir. Burada Almaniya istehsallı avadanlıqlarla təmin olunan avtomobillərin diaqnostik müayinə mərkəzi fəaliyyət göstərir, kompüter vasitəsilə ilkin müayinələr aparılır. Kompüterdə bu göstəricilərin surətləri çıxarılıb müştəriyə təqdim edilir və həmin nasazlıqların aradan qaldırılması üçün servis xidmətləri göstərilir. Xidmətin yüksək səviyyədə təşkili müştəri məmnuniyyətinə imkan verir.

Burada avtomobillərin qismən və ya tam şəkildə boyanması üçün boya sahəsi də fəaliyyət göstərir. Boyamanın keyfiyyətli aparılması üçün Almaniya istehsalı olan havalandırma və istilik sistemi ilə təmin edilən, kompüterlə idarə olunan xüsusi qurğu quraşdırılıb. Boyanma prosesi mərhələlər şəklində həyata keçirilir. Belə ki, ilk olaraq avtomobillərdən nümunələr götürülərək laboratoriyada analizdən keçirilir. Boyanın növü, tərkibi və rəngi müəyyənləşdirildikdən sonra laboratoriyanın göstəricilərinə uyğun boya hazırlanır. Boyanın vurulması və qurudulması xüsusi kabinədə aparılır ki, bu da görülən işin keyfiyyətində mühüm amildir.

Müəssisə tərəfindən səyyar servis xidməti də göstərilir. Xidmətin yüksəkkeyfiyyətli təşkili üçün ixtisaslı kadrlar cəlb olunub, xüsusi avtomobillər ayrılıb. Bu da iş prosesində avtomobillərdə yaranan nasazlıqların yerindəcə aradan qaldırılmasına və lazım olduqda evakuatorla müəssisəyə gətirilməsinə imkan verir. Servis xidmətlərinin lazımi səviyyədə aparılması bir tərəfdən müasir texnoloji avadanlıqlar və onları idarə edən ixtisaslı mütəxəssislərdən asılıdırsa, digər tərəfdən əvəzlənən ehtiyat hissələrinin keyfiyyətli olması ilə bağlıdır. Buna görə də avtomobillərin ehtiyat hissələri birbaşa istehsalçı müəssisələrdən alınıb gətirilməsi diqqət mərkəzində saxlanılıb, müəssisənin anbarında kifayət qədər ehtiyat yaradılıb. Müəssisədə bütün markalardan olan yük və minik avtomobillərinin mühərriklərinin yenilənməsi üçün xidmət sahəsi fəaliyyət göstərir. Burada Türkiyə Respublikasının "Sarıtaş" firmasının istehsalı olan, kompüterlə idarəetmə mərkəzi ilə təmin edilmiş 20-yə yaxın müasir texnoloji avadanlıq quraşdırılıb. Müəssisəyə daxil olan mühərriklər yuyulub təmizlənərək hissələrə ayrılır, yoxlamadan keçirilərək nasazlığı müəyyən edilir. Sonra isə mühərrikdə yaranmış problemin aradan qaldırılması üçün təyinatı üzrə ayrı-ayrı dəzgahlarda yenilənməsi prosesi həyata keçirilir. Onu da qeyd edək ki, əvvəllər yük və minik avtomobillərinin mühərriklərində yaranan nasazlığı aradan qaldırmaq üçün mühərrik Bakı şəhərində fəaliyyət göstərən ayrı-ayrı firmaların texniki xidmət mərkəzlərinə və ya Türkiyə Respublikasına göndərilirdi. Bu da həm əlavə xərcin çəkilməsinə, həm də vaxt itkisinə səbəb olurdu. Bu xidmət sahəsinin fəaliyyətə başlaması ilə həmin problemlər aradan qaldırılıb.

"Gəmiqaya Nəqliyyat" Məhdud Məsuliyyətli Cəmiyyəti muxtar respublikamızda mühərriklərin yenilənməsini kompleks formada həyata keçirən yeganə müəssisədir. Avtomobil nəqliyyatında yük daşınması sahəsində xidmətin səviyyəsinin daha da yaxşılaşdırılması məqsədilə 2012-ci ilin sentyabr ayında Naxçıvan şəhərində TIR Park Kompleksi istifadəyə verilib. Naxçıvan dairəvi avtomobil yolunun kənarında inşa olunan, 3 min kvadratmetrdən artıq ərazini əhatə edən bu kompleksdə eyni vaxtda 120-dən çox yük avtomobilinə xidmət göstərilməsi üçün şərait yaradılıb. Yerli və beynəlxalq yük daşınması ilə məşğul olan sürücülərin, eləcə də kompleksin xidmətlərindən istifadə edən qonaqların rahatlığı üçün burada 2 korpuslu bina inşa olunub. Binanın birinci mərtəbəsində iaşə xidməti, ikinci mərtəbəsində isə moteltipli yataq otaqları fəaliyyət göstərir. Kompleksin özünəməxsus üstün cəhətlərindən biri də burada müasir tələblərə cavab verən yeni anbar binasının tikilib istifadəyə verilməsidir. Ərazidə avtomatik idarə olunan 80 tonluq yük tərəzisi və nəzarət videokamera sistemi quraşdırılıb, açıq avtomobil dayanacaqları yaradılıb.

*Bəli, keyfiyyətli servis xidməti hər bir avtomobil istifadəçisi üçün, necə deyərlər, vacib şərtlərdən biridir. Bu baxımdan "Gəmiqaya Nəqliyyat" Məhdud Məsuliyyətli Cəmiyyəti istənilən anda sürücülərə xidmət göstərməyə hazırdır.*

✍ **Nail ƏSGƏROV**

# Ömrü Duzdağına dönən Naxçıvan

## Naxçıvanın təbii və dəyərli sərvəti olan duzun folklor mətnlərimizdə də özünəməxsus yeri var

***Hər bir naxçıvanlı öz doğma el-obası, yaşadığı yer haqqında danışarkən şəhərimizin və digər yaşayış məntəqələrimizin müasirliyi, təmizliyi, təbiətinin əsrarəngizliyi, tarixi abidələri, əzəmətli dağları, mərd və qorxmaz insanları ilə yanaşı, Duzdağ və Naxçıvan duzu barəsində fikirləri də ayrıca yer tapır.***

Naxçıvan şəhərinin bir neçə kilometrliyində yerləşən Duzdağa uzaqdan göz məsafəsindən baxanda lay-lay torpaq qatlarını görməmək mümkün deyil. Duzdağın bu qəribə rəngli zolaqları ağbirçək nənələrimizin rəngli qurşaqlarını xatırladır. Elə buna görədir ki, ötən il yazdığım şeirlərimin birində Duzdağı “göy qurşağı”na bənzədərək demişdim:

*Göy qurşağı göy üzünün yeddi rəngli möcüzəsi,*
*Yerdəki göy qurşağını Duzdağına baxan görər.*

Duzdağın dünyanın ilkin insan məskəni olan Naxçıvanda var olması bu torpağın müqəddəsliyinə və qədimliyinə dəlalət edən faktlardan biridir. Tarixən duzu müqəddəs bilən dədə-babalarımız, bəlkə də, elə bu torpağın müqəddəsliyini də elə Duzdağla, duzla əlaqələndirib bizlərə aşılayıblar.

Sevindirici haldır ki, hər bir maddi və mənəvi, təbii sərvətinə hədsiz diqqətlə yanaşan dövlətimiz Naxçıvan duzunun da bu sırada olması üçün çox mühüm və düşünülmüş bir dövlət sənədi imzaladı. Belə ki, “Naxçıvan Duz Muzeyinin yaradılması haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 12 sentyabr tarixli Sərəncamı gözümüzün önündə olan, lakin kifayət qədər tanımadığımız, sıradan bir sərvət kimi yanaşdığımız duza layiq olan dəyəri verməyimiz üçün bir stimul oldu.

Etiraf edək ki, bu günədək, bəlkə də, bir çoxumuz heç Duzdağa getməmişik. Onun dadı və tamını yerində dadmamışıq, sirli duz mağarasında ciyərdolusu bir nəfəs almamışıq.

Halbuki yuxarıda qeyd etdiyimiz sərəncamda da vurğulandığı kimi, hələ 1882-ci ildə rus tədqiqatçısı Konstantin Nikitinin Tiflisdə nəşr olunan “Qafqaz ölkəsi və tayfalarının təsviri üçün materiallar məcmuəsi”ndə verilən “Naxçıvan və Naxçıvan şəhəri” adlı irihəcmli məqaləsində Nuh Peyğəmbərin özünün duz mədənində ilk çalışanlardan olması, şəhər əhalisinə duz çıxartmağı öyrətməsi qeyd olunur. Bəşəriyyətin ikinci atası adlandırılan Nuh Peyğəmbərin Naxçıvanda məskən salması, Duzdağda duz çıxarması bu torpağın müqəddəsliyinə daha bir müqəddəslik – Nuh müqəddəsliyi, Peyğəmbər müqəddəsliyi əlavə edir.

“Naxçıvan Duz Muzeyinin yaradılması haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 12 sentyabr tarixli Sərəncamında qeyd olunduğu kimi: *“Naxçıvan duzunun tarixdə oynadığı mühüm rolu nəzərə alaraq aparılan elmi tədqiqatların nəticələrinin sistemləşdirilməsini, elmi araşdırmalar zamanı əldə olunmuş maddi-mədəniyyət nümunələrinin qorunub saxlanılmasını təmin etmək”* bu müqəddəs məkanın daha bir müqəddəs sərvətinə verilən qiymətin göstəricisidir.

Şübhəsiz, hər bir xalqın tarixinin qədimliyi həm də onun şifahi söz sənətində, folklor nümunələrində, xalq yaddaşının söz xəzinəsində qorunub saxlanılır, gələcək nəsillərə ərməğan kimi çatdırılır. Bu mənada, folkloru zəngin olan xalqların həm də tarixinin qədim və zəngin olması bütün dünya alimləri tərəfindən qəbul edilmiş gerçəklikdir. Azərbaycan xalqının, xüsusilə Naxçıvan bölgəsinin zəngin folklor bazasının olması, folklor mətnlərimizdə keçmişlə, Nuhla, duzla bağlı bir çox nümunələrin zənginliyi də həm bu yerlərin Nuhla bağlılığını ortaya qoyur, həm də lap qədim zamanlardan insanların burada duz çıxarılma kimi mühüm mədəni prosesl məşğul olduqlarını isbat edir.

Naxçıvanın ayrı-ayrı bölgələrindən toplanmış folklor mətnlərində biz duzla bağlı inanclara, qarğışlara, bayatılara, atalar sözlərinə, məsəllərə, rəvayətlərə, tapmacalara, nağıllara, aşıq yaradıcılığı nümunələrinə rast gəlirik. Hətta bəzi dastanlarımız da vardır ki, həmin irihəcmli folklor nümunələrində də Naxçıvandakı Duzdağ, duz məsələləri özünə geniş yer tapmışdır.

Nəinki Naxçıvan əhalisinin, eləcə də digər bölgələrdə yaşayanların da Naxçıvan adı gələn kimi dilə gətirdikləri “Naxçıvanın duzu, qızı, qarpızı” məsəlini xatırlatmaq kifayətdir. Bununla bərabər, bayatılarımızda da duz şifahi xalq ədəbiyyatımızın söz yaddaşına öz möhürünü vurmuşdu:

*Naxçıvanın düzü var,*
*Büllur kimi duzu var.*
*İki könül bir olsa,*
*Kimin ona sözü var?!*

*Əziziyəm, duz-çörək,*
*Halal çörək, düz çörək.*
*Hər şey itsə də inan,*
*Heç vaxt itməz duz-çörək.*

*Naxçıvanın Duzdağı,*
*Duz təpəsi, Duz dağı.*
*Yar çəkdi sinəm üstən*
*Dərd üstündən yüz dağı.*

Bu cür nümunələr Duzdağın, duzun bayatı axıcılığında, az sözlə çox fikir ifadə etməkdə usta olan xalqımızın söz sənətkarlığında da yaddan çıxarılmamışdır.

Naxçıvan duzu toy-düyünlərimizdəki xına mərasimlərində qız və oğlan tərəfinin bir-biri ilə təbəssüm doğuran sözlü atışmalarında da öz əksini tapır:

*Naxçıvanın sal duzu, haxışta,*
*Xörəyə az sal duzu, haxışta.*
*Əmqızının kefidi, haxışta,*
*Ərə gedir baldızı, haxışta.*

Duzla bağlı folklorumuzda tapmacalar arasında da maraqlı nümunələrə rast gəlinir. Onlardan birində belə deyilir:

*“Gəzib bütün dünyanı,*
*Bəyənib bizim yeri,*
*Məskən edib Naxçıvanı” (Açması: Duz).*

Başqa bir tapmacada isə soruşulur:

*“Məni tək yeməzlər, mənsiz də yemək olmaz” (Açması: Duz).*

Nağıllarda, aşıq yaradıcılığında, həmçinin aşıqlarla bağlı rəvayətlərdə, yaradılmış dastanlarda da duz tez-tez dilə gətirilir, xatırlanır. Naxçıvandan toplanmış “Daşbəyin nağılı”, “İnsaf qalmadı” nağıllarında, həmçinin “Məmmədcəfər və Səhnə xanım” adlı dastan-rəvayətdə, el şairi Sərraf Qasımın yaratdığı bir çox dastan-hekayətlərdə bu baxımdan maraqlı məqamlar diqqəti cəlb edir.

Xalqımız tərəfindən müqəddəs sayıldığı üçün inanc və qarğışlarımızda da duz istinad mənbəyi olmuş, insanlar duzdan kömək ummuş, duza söykənmişlər. Nənə-babalar övladlarını, nəvələrini “Ömrün Duzdağına dönsün” alqışıyla alqışlamış, düşmənləri “Səni görüm duz sənə qənim olsun”, – deyə qarğımışlar. İnsanlar kədərli anlarında “Yarama duz basma” yalvarışıyla dilə gəlmiş, and içəndə “Duz-çörək haqqı” inamıyla dillənmişlər. Körpə balalarımız narahat olanda başlarına duz hərləyib ocağa atıb kömək diləmiş, nadürüst insanları “duzsuz adam” kimi qiymətləndirmişlər. Səmimiyyətlərini “Filankəslə bir batman duz kəsmişik” sözləriylə bildirmiş, uzun ayrılıqların vüsalını “duz kimi yalamaqla” ifadə etmiş, dostluq və qardaşlığı “duz-çörək kəsməklə” əbədiləşdirmişlər.

Sonda bir məqamın ilahi müqəddəsliyini qeyd etmədən qələmi yerə qoymaq istəmədim. Belə ki, yuxarıda da vurğuladığımız kimi, xalqımız “Ömrün uzun olsun” alqışını bir başqa şəkildə “Ömrün Duzdağına dönsün”, – deyə ifadə edir. Nə böyük bir xoşbəxtlik ki, böyük Yaradan Naxçıvanın qoynunda Duzdağını yaratmaqla həm də bu müqəddəs torpağa öz ilahi alqışını söyləyib: “Ömrün Duzdağına dönsün”, – deyib.

“Naxçıvan Duz Muzeyinin yaradılması haqqında”kı Sərəncam da müqəddəs torpağın qoynundakı müqəddəs nemətin ömrünü Duzdağına döndərəcək.

**Elxan YURDOĞLU**
***AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru***

# Uşaq-gənclər idman məktəbinin uğurları artır

***Bir ölkənin gələcəyi üçün təhsilin vacibliyindən geniş danışmağa, fikrimcə, ehtiyac yoxdur. Bu, hamıya məlumdur və hər kəs təhsilli bir gəncliyin ölkənin gələcək perspektivində necə mühüm rol oynadığının fərqindədir. Bununla yanaşı, yeniyetmə və gənclərin dünyagörüşünün formalaşması üçün başqa sahələrin də əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Bunun üçün məktəbdənkənar müəssisələrin üzərinə mühüm vəzifələr düşür. Uşaqların asudə vaxtlarının səmərəli keçməsi baxımından əhəmiyyətli rol oynayan belə müəssisələrə dövlət qayğısı da yüksəkdir.***

Şahbuz rayon Uşaq-gənclər idman məktəbinə üz tutmaqla da məqsədimiz bu müəssisənin fəaliyyəti ilə yaxından tanış olmaq idi. Məktəbin direktoru Ramin Qənbərov bildirdi ki, Şahbuz rayon Uşaq-gənclər idman məktəbi 1972-ci ildən fəaliyyət göstərir.

Məktəbdə idmanın futbol, voleybol, yüngül atletika, sərbəst güləş bölmələri var. Hazırda məktəbdə 301 nəfər şagirdlə 15 məşqçi-müəllim məşğul olur. Məktəbdə 22 qrup yaradılıb.

Məktəbdənkənar tərbiyə müəssisəsi 2016-2017-ci tədris ili üçün tədbirlər və iş planı hazırlayaraq həyata keçirib. Dərs ili üçün, həmçinin tarixi və əlamətdar günlərlə əlaqədar ayrıca tədbirlər planı hazırlanıb. Həmin tədbirlər planına uyğun olaraq müntəzəm surətdə qruplar arasında müxtəlif idman tədbirləri, yoldaşlıq görüşləri keçirilib. Bundan əlavə, rayon səviyyəli və muxtar respublika birinciliklərində, çempionat və turnirlərdə məktəbin komandaları uğurla çıxış ediblər. “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında keçirilən yüngül atletika, futbol, voleybol, sərbəst güləş üzrə rayon birinciliklərində məktəbin komandaları yüksək yerlərə sahib olublar.

2016-cı il 17-18 oktyabr tarixlərində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirliklərinin, Yüngül Atletika Federasiyasının təşkilatçılığı ilə məktəblilərin spartakiadası keçirilib. Naxçıvan şəhərində keçirilən bu spartakiadada da Şahbuz rayonunu Uşaq-gənclər idman məktəbinin komandası təmsil edib və komanda hesabında II yer tutub. İdmançılar təşkilatçılar tərəfindən diplomlar və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

2017-ci il 6-7 mart tarixlərində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Futbol Federasiyası ilə birlikdə 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş 2000-2002-ci illər təvəllüdlü idmançılar arasında futbol üzrə Naxçıvan Muxtar Respublika birinciliyində isə məktəbin komandası birinci yerin sahibi olub.

Bu il 1-8 aprel tarixlərində Şərur rayon Olimpiya-İdman Kompleksində AFFA və Coca-Cola şirkətinin təşkilatçılığı ilə 10-14 yaşlılar və məktəbli kuboku futbolçuları arasında azyaşlı futbolçular üzrə Naxçıvan Muxtar Respublikası zona birinciliyi də şahbuzlu idmançılar üçün yaddaqalan olub. Belə ki, birincilikdə 10-12 yaşlı futbolçular üçüncü yerə, 11-13 yaşlılar isə ikinci yerə layiq görülüblər.

Göründüyü kimi, adıçəkilən məktəbdənkənar tərbiyə müəssisəsi yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi, onlarda idmanın müxtəlif növlərinə marağın artırılması, uşaqların yarış və turnirlərdə iştiraklarının təmin edilməsi üçün qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə səy göstərir. Bu isə muxtar respublikada sağlam gəncliyin yetişməsinə şərait yaradır, regionda bədən tərbiyəsi və idmanın kütləviləşməsinə töhfələrini verir.

**Fatma BABAYEVA**

# İdman obyektlərində dezinfeksiya işləri aparılıb

Avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə verilmiş tapşırıqların icrası ilə bağlı muxtar respublikanın Gənclər və İdman Nazirliyində keçirilən kollegiya iclasında tədbirlər planı hazırlanmışdır.

Tədbirlər planına uyğun olaraq idman müəssisələrində yoluxucu xəstəliklərə qarşı dezinfeksiya işləri aparılıb. İdmançıların sağlam mühitdə idmanla məşğul olmaları üçün rayonlarda da mütəmadi işlər görülür. Kəngərli Rayon Gənclər və İdman İdarəsi tərəfindən Qarabağlar kəndində yerləşən 2 nömrəli tam orta məktəbin və Şərq Döyüş Sənəti Federasiyasının yeni istifadəyə verilən idman zallarında, eyni zamanda digər yardımçı otaqlarda dezinfeksiya işləri aparılıb. Kəngərli Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin əməkdaşları tərəfindən aparılan dezinfeksiya işləri digər idman obyektlərini də əhatə edəcəkdir.

Bu gün idmançıların sağlam mühitdə idmanla məşğul olmaları üçün Babək rayonunda da mütəmadi işlər görülüb. Rayon Gənclər və İdman İdarəsi tərəfindən Babək qəsəbəsində yerləşən 1 və 2 nömrəli tam orta məktəblərin idman zallarında və digər yardımçı otaqlarda dezinfeksiya işləri aparılıb.

# Karate-do üzrə yoldaşlıq görüşü keçirilib



***Nehrəm kəndindəki 1 nömrəli tam orta məktəbin idman zalında karate-do üzrə Babək qəsəbəsi və Nehrəm komandaları arasında yoldaşlıq görüşü keçirilib.***

Görüşdən öncə çıxış edən rayon Gənclər və İdman İdarəsinin rəisi Elvin Əliyev və Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının Babək rayon bölməsinin məşqçisi Vüsal Allahverdiyev bildiriblər ki, son illər muxtar respublikamızda müasir idman kompleksləri tikilib, mövcud idman obyektləri günün tələblərinə uyğun yenidən qurulub, maddi-texniki baza möhkəmləndirilib. Peşəkar idmançıların yetişdirilməsi, bu sahədə qazanılan nailiyyətlərin ildən-ilə artması, beynəlxalq yarışlarda yüksək nəticələrin əldə olunması və ölkəmizin beynəlxalq yarışlara ev sahibliyi etməsi dövlətin bu sahəyə olan qayğısının nəticəsidir. Qeyd olunub ki, bu qayğıdan Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyası da yetərincə bəhrələnib. Federasiyanın Babək rayonundan olan karateçiləri də keçirilən ölkə və beynəlxalq miqyaslı yarışlarda uğurla iştirak edir, diplom və medallara layiq görülürlər.

Yoldaşlıq görüşündə 38 idmançı mübarizə aparıb. Sonda qalib komandanın üzvlərinə təşkilatçılar tərəfindən diplomlar təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 737